Dünya mətbuatında ulu öndər Heydər Əliyev haqqında məqalələr yayılıb

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə italiyalı jurnalist Romalo Martelloninin "Globalist", "Notizie Geopolitiche", "Andradelab" kimi analitik-xəbər portallarında "Azərbaycan və Heydər Əliyev: qırılmaz tellər" adlı məqaləsi yayılıb. Bu barədə AZƏRTAC-a Azərbaycanın İtaliyadakı səfirliyindən məlumat verilib.

Müəllif məqaləsinə bu sözlərlə başlayır: "Bir çox dövlətlər var ki, onların tarixi və mədəniyyəti həmin dövlətlərin keçmişinə və bugününə öz təsirini göstərmiş xalqı üçün dəyərli olan böyük şəxsiyyətlərlə bağlıdır. Bu dövlətlərdən biri də Azərbaycandır. Artıq bir müddətdir ki, yüksək tərəqqi və inkişaf yaşayan Qafqaz ölkəsinin paytaxtı Bakını və onun əyalətlərini gəzərək xalqın Heydər Əliyevi necə xatırladığını və sevdiyini müşahidə etmək olar. Azərbaycanı hazırkı iqtisadi qüdrətinə çatdıran, Avropa, o cümlədən İtaliya üçün etibarlı tərəfdaş edən bu şəxsiyyətin doğum günü 10 may tarixində nəinki ölkə daxilində, həm də xaricdə möhtəşəm tədbirlərlə qeyd olunur".

Yazısında ümummilli liderin həyat və fəaliyyətinin əsas məqamlarını xronoloji ardıcıllıqla verən müəllif Sovet İttifaqı dönəmində Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrü Azərbaycanda yenilənmə, dinamik inkişaf və mədəni intibah dövrü kimi qiymətləndirir, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində səhiyyə, ağır və yüngül sənaye, nəqliyyat, kommunikasiya, mədəniyyət və təhsil kimi sahələri kurasiya etdiyini diqqətə çatdırır. Heydər Əliyevin SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu və baş katib M.Qorbaçovun siyasəti ilə razılaşmayaraq vəzifəsini tərk etdiyini, Qara Yanvar hadisələrindən dərhal sonra Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək Azərbaycan əhalisinə qarşı törədilmiş bu cinayətlərə sərəncam verən və icra edənlərin dərhal cəzalandırılmasını tələb etdiyini, bir qədər sonra isə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində sovet rəhbərliyinin nümayiş etdirdiyi ikiüzlü siyasətə etiraz olaraq Kommunist Partiyası sıralarından çıxdığını yazır.

SSRİ-nin dağılması və müstəqilliyin bərpasından sonra Azərbaycanın çox çətin dövrdən keçdiyini vurğulayan müəllif vətəndaş müharibəsi və yenicə bərpa edilmiş müstəqilliyin itirilməsi təhlükəsi qarşısında xalqın Heydər Əliyevi vəziyyətin öhdəsindən gələ biləcək yeganə lider kimi gördüyünü, onun xalqın tələbi ilə hakimiyyətə qayıtdığını yazır. Müəllif vurğulayır ki, Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə dövlət müstəqilliyi qorunub saxlanıldı, ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində, elmi əsaslarında dönüş yarandı, demokratik prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı.

R.Martelloni bildirir ki, Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı və 1 milyon azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsi ilə nəticələnmiş Dağlıq Qarabağ münaqişəsinin həlli Heydər Əliyev siyasətinin prioriteti idi. Onun hakimiyyətə qayıdışı ilə Azərbaycanda Milli Ordu quruculuğunda ciddi dəyişikliklər başlandı, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü dayandırıldı, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu və münaqişənin nizamlanması üçün danışıqlar prosesi başlandı. Ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə Heydər Əliyev xarici siyasətinin böyük bir hissəsini bu münaqişənin bu gün də olduğu kimi, Azərbaycanın ərazi bütövlüyünə hörmət və Ermənistan qoşunlarının işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılması əsasında həllinə həsr etmişdi.

Ümummilli liderin yürütdüyü daxili siyasətə diqqət yetirən müəllif həmin

World

Legami indissolubili: Azerbaigian e Heydar Aliyev

La vita e le azioni di questo leader nazionale, ricordato e ancora profondamente apprezzato dal suo popolo. [Romolo Martelloni]

ROMOLO MARTELLONI
venerdì 6 maggio 2016 07:18

Commenta

dövrün Azərbaycanda demokratik institutların möhkəmləndirilməsi üçün çoxsaylı addımların atılması ilə səciyyələndiyini, ölkədə hüquqi və demokratik dövlət quruculuğu yolunun seçildiyini, 1995-ci ildə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edildiyini, aparılan islahatlar nəticəsində ölkənin bütün hüquq sistemində köklü dəyişikliklərə səbəb olan yeni mütərəqqi qanunların qəbul edildiyini bildirir.

Ümummilli liderin hakimiyyətə gəlməsindən sonra Azərbaycanın xarici siyasətində əsaslı dəyişikliklərin baş verdiyini yazan R.Martelloni müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yerinin, yaxın dövr üçün prioritetlərinin, Avropa ölkələri və ABŞ, yeni müstəqil dövlətlər və Rusiya, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İran, Asiya, Afrika və Cənubi Amerika ölkələri ilə əlaqələrinin istiqamətlərinin, aparıcı strategiyasının müəyyənləşdirildiyini vurğulayır, Heydər Əliyevin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirdiyi xarici siyasət kursunun ən mühüm uğurlarından biri kimi Azərbaycanın Avropa ailəsinə qoşulmasını və 2001-ci ildə Avropa Şurasına üzv qəbul edilməsini vurğulayır, bütün bunların Azərbaycanın beynəlxalq etibarlı tərəfdaşa çevrilməsinə böyük töhfə verdiyini qeyd edir.

Məqalədə diqqətə çatdırılır ki, Heydər Əliyevin həyata keçirdiyi iqtisadi islahatlar nəticəsində 1996-cı ildən başlayaraq ölkədə hərtərəfli iqtisadi inkişaf vüsət aldı və müasir texnologiyaya əsaslanan sənaye iqtisadiyyatı formalaşmağa başladı. Azərbaycanın neft strategiyasının reallaşmasının və 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasının Heydər Əliyevin adı ilə bağlı olduğunu yazan R.Martelloni vurğulayır ki, bu gün Azərbaycan Bakı-Tbilisi-Ceyhan neft kəməri da daxil olmaqla, strateji neft və qaz kəmərləri şəbəkəsi vasitəsilə öz enerji ehtiyatlarını təchiz etməklə Avropanın enerji təhlükəsizliyinə töhfə verməyə davam edir. Bu illər ərzində İtaliya Azərbaycan neftinin əsas istehlakçılarından olub və TAP layihəsinin həyata keçirilməsi ilə Azərbaycan qazının da əsas istehlakçısı olacaq ki, bununla eyni zamanda İtaliya Avropanın enerji mərkəzinə çevriləcək. Bütün bunlar Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən strategiyanın nəticəsidir.

Müəllif məqaləsini bu fikirlərlə yekunlaşdırır: "Bu gün azərbaycanlılarla, o cümlədən gənc nəslin nümayəndələri ilə söhbət zamanı aydın olur ki, bütün ömrünü ölkəsinin çiçəklənməsinə həsr etmiş Heydər Əliyevin şəxsiyyəti həm doğum günündə, həm də işlərinin bəhrəsinin görüldüyü hər bir məqamda xatırlanır və yüksək qiymətləndirilir".

* * *

Mayın 10-da Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) rəsmi Dövlət İnformasiya Agentliyində, eləcə də Bəhreynin və Fələstinin xəbər portallarında "Azərbaycan xalqı ümummilli lider Heydər Əliyevin doğum gününü təntənəli şəkildə qeyd edir" sərlövhəli məqalələr yayılıb.

Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərindəki Səfirliyindən AZƏRTAC-a bildiriblər ki, məqalələrdə Heydər Əliyevin həm sovet dönəmində hakimiyyətdə olduğu vaxtda, həm də müstəqilliyin ilk illərində Azərbaycan xalqının təkidi ilə hakimiyyətə qayıdışından sonra ölkəni xaosdan qurtardığı, məhz həmin səbəbə görə də bu dahi şəxsiyyətin xalqın ümummilli lideri və ulu öndərinə çevrildiyi oxucuların diqqətinə çatdırılır. Ümummilli liderin bu dünyanı tərk etməsinə baxmayaraq, Azərbaycan xalqının onun xatirəsini əziz tutduğu, hər il mayın 10-da ulu öndərin doğum gününün təntənəli şəkildə qeyd olunduğu diqqətə çatdırılır.

Məqalələrdə Naxçıvan Muxtar Respublikasında anadan olmuş Heydər Əliyevin həyatı və SSRİ dövründəki peşəkar fəaliyyətinə, müstəqilliyimizin ilk və ağır illərinə toxunulur. Vurğulanır ki, SSRİ dövründə zəngin və mərkəzdən dotasiya almayan iki respublikadan biri olmuş Azərbaycan müstəqilliyinin ilk illərində son dərəcə mürəkkəb və gələcəyi qaranlıq ictimai-siyasi və iqtisadi vəziyyətlə üzləşib. Məhz ümummilli liderin vətənpərvərliyi, xalqa hədsiz sədaqəti, habelə zəngin təcrübəsi sayəsində ölkəmiz demokratiya yoluna qədəm qoyaraq siyasi, ictimai və iqtisadi islahatlar vasitəsilə parlaq gələcəyə qovuşub, qlobal əhəmiyyətə malik enerji və nəqliyyat layihələrinin icra olunduğu məkana çevrilib.

Ordu quruculuğuna gəlincə, məqalələrdə həqiqi Ali Baş Komandan keyfiyyətlərini də özündə ehtiva edən ulu öndərin pərakəndə olan milli ordunun vahid mərkəzdə cəmləşdirməyi bacardığı vurğulanır.

Azərbaycanın xarici siyasət kursu ilə bağlı bölmədə oxucuların diqqətinə çatdırılır ki, məhz Heydər Əliyev ölkəmizin Avratlantik məkana inteqrasiya kursunun, o cümlədən Qərblə əlaqələrin, İslam və ərəb dünyası ilə tarixi əlaqələrin milli maraqlarımız prizmasından yenidən təşkilinin memarıdır. Bu xüsusda, BƏƏ-nin Dövlət İnformasiya Agentliyinin məlumatında, həmçinin Heydər Əliyevin 1994-cü ildə o vaxtkı İslam Konfransı Təşkilatının Kasablanka Zirvə toplantısı çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin qurucusu mərhum Şeyx Zayed bin Sultan Əl Nəhyanla görüşünün iki ölkə əlaqələrinin inkişaf istiqamətlərini müəyyən etdiyi vurğulanır. Həmçinin bu əlaqələrin bu gün Prezident İlham Əliyev və Prezident Şeyx Xəlifə bin Zayed Əl Nəhyan tərəfindən uğurla davam etdirildiyi diqqətə çatdırılır.

Daha sonra məqalələrdə Heydər Əliyevin cızdığı müdrik kurs üzərində sabit dayanan müasir Azərbaycanda bu gün misli görünməmiş dinamik inkişafın baş verdiyi, Prezident İlham Əliyevin hikmətlə davam etdirdiyi həmin kurs sayəsində ölkəmizin regional liderə və beynəlxalq əlaqələrdə etibarlı tərəfdaşa çevrildiyi qeyd edilir. Məhz ümummilli liderin müəyyənləşdirdiyi enerji və nəqliyyat strategiyasının TAP kimi yeni qlobal enerji layihəsinin, eləcə də Şimal-Cənub nəqliyyat dəhlizinin və "Böyük İpək yolu" layihəsinin gündəmə gətirdiyinə diqqət çəkilir.

Ölkəmizdə mədəniyyət və idmana dövlət qayğısının təhlili əsnasında məlumat verilir ki, respublikamız "Eurovision", ilk Avropa Oyunları kimi mötəbər beynəlxalq yarışlara evsahibliyi edib və cari ilin iyununda Formula 1 üzrə Avropa Qran-prisinə, 2017-cü ildə isə möhtəşəm İslam Həmrəylik Oyunlarına evsahibliyi edəcək.

Məqalələrin yekununda xüsusilə qeyd edilir ki, Heydər Əliyevin vəfatından 13 il keçməsinə baxmayaraq, onun yaradıcı ideyaları öz bəhrəsini vermək-dədir. Paralel olaraq, Heydər Əliyevin irsini yetişən nəsillərə çatdırmaqla yanaşı, humanitar, mədəniyyət və təhsil sahələrində layihələrin icrası vasitəsilə Heydər Əliyev şəxsiyyətinin həm ölkə daxilində, həm də dünya miqyasında daha da geniş tanıdılması işində Azərbaycanın birinci xanımı, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu uğurla fəaliyyət göstərir.